**15 iyun 2021-ci il**

*- İki dağın arasındakı yer ki, var... Ora Xankəndi şəhəridir.*
*- Hotel oradamı? - deyə Rəcəb Tayyib Ərdoğan soruşmuşdu.*
*- Xeyr, xeyr. Amma orada da olacaq.*



**5 iyul 2024-cü il**




# Ölkə başçısının Qarabağa hər səfəri Böyük Qayıdışı sürətləndirir

***Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin iyulun 5-də Qarabağa növbəti səfəri baş tutub. Ölkə başçısı bir sıra mühüm əhəmiyyət kəsb edən obyektlərin açılışında iştirak edib və Xocalı Hava Limanında olub. İkinci Qarabağ müharibəsinə kimi Qarabağın yeganə hava limanı olan Xocalı aeroportu 1974-cü ildə istifadəyə verilib və keçmiş Qarabağ münaqişəsinə qədər İrəvan-Xankəndi reyslərini həyata keçirib. Birinci Qarabağ müharibəsi dövründə ermənilərin ən çox əldə etmək istədikləri mühüm strateji nöqtələrdən biri də Xocalı aeroportu idi. 1992-ci ildə Xocalının işğalı zamanı Ermənistan silahlı qüvvələrinin həmin ərazini əldə etməsi onların böyük "uğuru" hesab edilirdi. Lakin hücum nəticəsində hava limanı dağılaraq fəaliyyətini dayandırmışdı.***





2009-2012-ci illərdə əsaslı təmir olunub istifadəyə hazır olsa da, Azərbaycan tərəfi uçuşlara imkan verməmişdir. Bu səbəbdən, hava limanına 2020-ci ilə qədər BHNA və BMAT tərəfindən xüsusi kodlar verilməmişdir. 2020-ci ildə Ermənistanın Azərbaycan ərazilərinə yenidən hücum cəhdi zamanı düşmən yenilməz Silahlı Qüvvələrimiz tərəfindən layiqli cavabını almışdır. Elə həmin il Azərbaycan Dövlət Mülki Aviasiya Agentliyinin Azərbaycan Respublikasının Xankəndi də daxil olmaqla altı aeroportunun coğrafi koordinat indeksləri siyahısına daxil edilməsi ilə bağlı Beynəlxalq Mülki Aviasiya Təşkilatına (ICAO) müraciəti müsbət cavablandırılmışdır.

19-20 sentyabr 2023-cü il tarixində həyata keçirilən antiterror tədbirləri nəticəsində hava limanı Xocalı şəhəri ilə birlikdə Azərbaycanın nəzarətinə keçmişdir. 12 iyun 2024-cü ildə Azərbaycan ərazisində müvəqqəti yerləşdirilmiş rus sülhməramlı kontingentinin çıxarılması prosesi başa çatmış və aeroportda Azərbaycan bayrağı qaldırılmışdır.

Bu gün müstəqil Azərbaycanın işğaldan azad edilmiş ərazilərində Füzuli, Zəngilan Beynəlxalq Hava limanları fəaliyyət göstərir. Onların sırasına artıq Xocalı aeroportu da qoşulub. 2025-ci ildə isə Laçın Beynəlxalq Hava Limanı öz qapılarını dünya səmasına açacaq. Bütün bunlarla yanaşı, bu gün dövlətimizin həyata keçirdiyi Böyük Qayıdış planına uyğun olaraq işğaldan azad edilən hər bir şəhər və kənddə yenidənqurma işləri aparılır və keçmiş məcburi köçkünlərin yurda qayıdışı mərhələli şəkildə təmin edilir. Eyni zamanda da Xocalıda. Bu il Xocalı sakinlərinin doğma ocağa qayıdışı, ilk köç karvanı - 20 ailə olmaqla Müstəqillik Günündə baş tutdu. Hazırda köç prosesi davam edir və bu ilin sonuna qədər 300-dən çox ailənin Xocalıda məskunlaşması nəzərdə tutulur.

İyulun 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, həmçinin Xankəndi şəhərinə də gedib. Burada ölkə başçısı Qarabağ Universitetində görülən işlərlə tanış olub, əsaslı təmir və bərpadan sonra "Qarabağ" hotelinin açılışında iştirak edib. Onu da xatırlamaq yerinə düşər ki, 3 il qabaq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Cümhuriyyətinin başçısı Rəcəb Tayyib Ərdoğan arasında maraqlı bir dialoq olmuşdur. Dost ölkənin başçısı işğaldan azad edilmiş ərazilərlə tanışlıq zaman Şuşada - Cıdır düzündə Ali Baş Komandan İlham Əliyev dağların arasından bir istiqaməti göstərərək Prezident Ərdoğana:

- İki dağın arasındakı yer ki, var... Ora Xankəndi şəhəridir.

- Hotel oradamı? - deyə Rəcəb Tayyib Ərdoğan soruşmuşdu.

- "Xeyr, xeyr. Amma orada da olacaq", - deyə İlham Əliyev mesaj vermişdi. Beləcə, qətiyyətin, cəsarətin, siyasi iradənin və ədalətin sayəsində Azərbaycan öz əzəli və əbədi torpaqlarına sahib çıxdı. Düşmənin dağıdıb viran qoyduğu yurd yerlərimiz gülüstana çevrilir. Doğma ocağına həsrət qalmış sakinlər 30 ildən sonra yurd yerlərinə qayıdırlar. Ali Baş Komandan azad torpaqlarda hər gün yenilənən, öz sahibini gözləyən yaşayış məntəqələrinin açılış sevincini xalqa yaşadır. Dövlət başçısı iyulun 5-də daha bir mühüm obyektin - Xankəndi Konqres Mərkəzinin təməlini qoydu.

Onu da qeyd edək ki, işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərəcək ali təhsil ocağı olan Qarabağ Universiteti təhsilin inkişafında yeni mərhələdir. Regionun yüksəkixtisaslı kadr tələbatının ödənilməsi və tarixən mövcud olmuş təhsil ənənələrinin yaşadılması işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışın sürətlənməsində də əhəmiyyətli rol oynayacaq. İlkin mərhələdə 1120 nəfər tələbənin təhsil alması nəzərdə tutulan Qarabağ Universiteti 2024-2025-ci tədris ilindən fəaliyyətə başlayacaq. Bütün tələbələr üçün təhsil ödənişsiz olacaq. Universitetdə 6 fakültə, 27 ixtisas üzrə tədris aparılacaq. Xatırladaq ki, Qarabağ Universiteti Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 28 noyabr 2023-cü il tarixli sərəncamı ilə yaradılıb.

**Ramidə YAQUBQIZI,**
**"Respublika".**